**24 may 2018-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Apellyasiya Şurasının növbəti iclası keçirilmişdir**

İclasda "Avanqard Stroy" MMC-nin rəhbəri Fərziyev Babək İltizam oğlunun şikayətinə baxılmışdır.

"Avanqard Stroy" MMC-nin rəhbəri Fərziyev Babək İltizam oğlu Dövlət Miqrasiya Xidmətinin Apellyasiya Şurasına ünvanladığı şikayətində Çin Xalq Respublikasının vətəndaşı Xu Songzheni MMC-yə ayaqqabı istehsal etmək üçün alınmış avadanlığın quraşdırılması məqsədilə Azərbaycan Respublikasına dəvət etdiyini, səhhətində yaranmış problemlə əlaqədar olaraq onun ölkədə viza müddətindən artıq qaldığını, buna görə barəsində inzibati tənbeh tədbiri tətbiq edilərək ölkəyə gəlmək hüququnun məhdudlaşdırıldığını qeyd etmiş və bu halın onun sahibkarlıq fəaliyyətini həyata keçirməsinə ciddi problemlər yaratdığını bildirərək əcnəbinin ölkəyə gəlməsinə və yarımçıq qalmış quraşdırma işlərini tamamlamasına icazə verilməsini xahiş etmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, Çin Xalq Respublikası vətəndaşı Xu Songzhe (pasport nömrəsi: E61875292) son üç il ərzində üç dəfə (Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin 02.02.2016-cı il tarixli 15/7C-6949 nömrəli, 11.09.2016-cı il tarixli 15/6C-3295 nömrəli və 26.11.2017-ci il tarixli 15/7C-6949 nömrəli qərarları) inzibati məsuliyyətə cəlb olunmuş və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 16.1.8-ci maddəsinə əsasən 27.11.2017-ci il tarixdə 15/7D-2888 nömrəli Qərarla ölkəyə gəlişinə 5 il müddətinə qadağa tətbiq edilmişdir.

Eyni zamanda məlum olmuşdur ki, həqiqətən "Avanqard Stroy" MMC ayaqqabı istehsal etmək üçün Çin Xalq Respublikasından 4 ədəd avadanlıq almışdır, onlardan biri quraşdırılmış (işlək vəziyyətdədir), digər 3 avadanlıq isə tam quraşdırılmadığından istismar olunmur. Bu hal sahibkarın sahibkarlıq fəaliyyətinə ciddi maneə yaradır.

Həmçinin iş materiallarından aydın olmuşdur ki, müvafiq avadanlıqların quraşdırılması ilə məşğul olan Çin Xalq Respublikası vətəndaşı Xu Songzhe miqrasiya qanunvericiliyinin tələblərini pozmasına görə barəsində tətbiq edilmiş inzibati tənbeh vermə haqqında qərarları cərimələri vaxtında ödəməklə icra etmiş, həmçinin sonuncu inzibati xətaya isə səhhətində yaranmış problemlə əlaqədar yol vermişdir.

Ölkə Prezidentinin sahibkarlığın inkişaf etdirilməsinə münbit şəraitin yaradılması ilə bağlı aktlarını, müraciətdə qeyd olunan halın sahibkarın sahibkarlıq fəaliyyətini həyata keçirməsinə ciddi maneələr yaratdığını, eləcə də Apelyasiya Şurasının iclasında aparılan müzakirələri, Şura üzvlərinin məsələyə dair rəylərini, şikayət üzrə işin faktiki hallarını, gətirilmiş dəlilləri, toplanmış materialları və sübutları nəzərə alaraq, Apellyasiya Şurası şikayətin təmin edilməsi haqqında qərar qəbul etmişdir.